**Frank Herbert**

# DYUN

İngilis dilindən tərcümə edən:
Vurğun Maşıyev

qanun nəşriyyatı

Frank Herbert

# DUNE

“Matris”dən əvvəl, “Ulduz müharibələri”ndən, “Enderin oyunu” və “Neyromant”dan əvvəl bəşər tarixində yazılmış ən böyük elmi-fantastika romanı olan “Dyun” var idi.

Melanj adlı ədva kainatın ən qiymətli və nadir tapılan elementidir. İnsanın ömrünü uzadan, ulduzlararası səyahəti mümkün edən bu maddəni yalnız bir planetdə tapmaq olar – həyat üçün əlverişsiz şəraiti olan səhra planeti Arrakisdə.

Arrakisə nəzarət edən, melanja nəzarət edər. Və melanja nəzarət edən, kainata nəzarət edər.

İmperator Arrakisin idarəçiliyini Harkonnen sülaləsindən alıb Atreydis sülaləsinə həvalə etdikdən sonra Harkonnenlər döyüş başladaraq Atreydis hersoqu Letonu qətlə yetirirlər. Hersoq Letonun cariyəsi Ledi Cessika gənc oğlu Paulla birlikdə səhraya qaçır və orada Arrakisin yerli xalqı sayılan bir qrup fremen tərəfindən xilas edilir. Fremenlər Arrakisin ikinci böyük resursuna nəzarət edirlər: qızmar səhra qumlarının altında sürünən nəhəng soxulcanlara.

Ordu toplayaraq həm atasının qisasını, həm də Arrakisi Harkonnenlərdən geri almaq üçün Paul fremenlərin etibarını qazanmalı və kiçik ordusu ilə ona qarşı birləşmiş böyük qüvvələrlə çarpışmalıdır.

Onun səyahəti hər şeyi dəyişəcək.

Bu kəhanət təşəbbüsü (bəzi ruhanilərin və ya xüsusi adamların gələcəyi xəbər vermələri) harada və nə vaxt çalışmaqlarından asılı olmayaraq, ideyaları aşıb “konkret materiallar” dünyasına əmək verən insanlara – quraq ərazi ekoloqlarına həsr olunub.

**Frank Herbert** **DUNE**
**Frank Herbert** **DYUN**
Bakı, Qanun Nəşriyyatı, 2023, 624 səh.

Janr: fiction/roman/elmi-fantastik
Ölçü: 145x215 mm
Cild: yumşaq
Çapa imzalandı: 11.05.2023

Naşir: Şahbaz Xuduoğlu
İngilis dilindən
tərcümə edən: Vurğun Maşıyev
Redaktor: Röya Rəfili
Korrektorlar: Lalə Əmirli, Ülviyyə Eminova
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Pərvanə Şahin
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-753-7

© Qanun Nəşriyyatı, 2023
© 1965 by Herbert Properties LLC

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları
Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə
nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında"
Azərbaycan Respublikasının Qanununa ziddir.

# I kitab
# DYUN

*Başlanğıc tarazlığın düzgünlüyünə diqqət yetiriləcək ən həssas andır. Bunu hər Bene Qesserit rahibəsi bilir. Bu səbəbdən, Muad Dibin həyatını öyrənərkən onu öz zəmanəsinə qoymaq lazımdır: o, padşah imperator IV Şaddamın hakimiyyətinin 57-ci ilində doğulub. Həmçinin, Muad Dibin məkanına xüsusi diqqət yetirmək lazımdır: Arrakis planetinə. Kaladanda doğulub orada həyatının ilk on beş ilini keçirdiyi faktı sizi yanıltmasın. Arrakis – Dyun adı ilə tanınan bu planet onun əbədi məkanıdır.*

**“Muad Dibin həyatı”, Şahzadə İrulan**

Arrakisə köçməmişdən bir həftə əvvəl, təlaşın dözülməz dərəcəyə çatdığı ərəfədə Paulun anasının yanına bir nəfər qoca qarı gəldi.

Kaladan qəsrində sərin gecə hökm sürürdü: Atreydis ailəsinə iyirmi altı nəsildir xidmət edən bu antik daş yığını havada dəyişiklik olan zaman yaranan ılıq əhvali-ruhiyyəyə bürünmüşdü.

Qoca qadın Paulun otağının yanındakı dar keçiddən keçərkən ayaq saxlayıb çarpayısında uzanmış Paula gözucu baxdı.

Oyaq olan Paul döşəməyə yaxın dayanmış qlouqlobun[1] tutqun işığında anasından bir addım öndə dayanan qadının geniş kölgəsini görə

[1] Asqı qüvvəsi sahəsində havada asılı qalan və istənilən yerə hərəkət edən kürə formasında səyyar lampa.

bildi. Qoca qadın sanki bir cadugər kölgəsi idi: hörümçək toruna bənzər saçları, üzünün cizgilərini örtən kapüşonu, muncuq boyda parlayan gözləri görünürdü.

"Yaşına görə çox kiçik deyilmi, Cessika?", – qoca qadın soruşdu. Səsi, köklənməmiş baliset[1] kimi vızıldayıb cınqıldadı.

Paulun anası yumşaq kontralto (əslində qalın) səsi ilə cavab verdi: "Atreydislər gec böyüməkləri ilə tanınırlar, Möhtərəm".

"Belə də eşitmişəm, belə də eşitmişəm", – qoca qadın vızıltılı səsi ilə dedi. "Bununla belə, onun artıq on beş yaşı var".

"Bəli, Möhtərəm".

"O oyaqdır və bizə qulaq asır", – qoca qadın əlavə etdi. "Hiyləgər balaca şeytan!" – deyib yavaşdan güldü. "Fəqət hakimiyyət, hiyləgərlik tələb edir. Və əgər o, həqiqətən Kvisax Haderaxdırsa...[2] deməli...".

Paul çarpayısının kölgələri arasında gözlərini qısıb bərəltdi. Qoca qadının quş gözü tək oval gözləri, genişlənib parlayaraq onun gözlərinə zillənmişdi.

"Yuxun şirin olsun, hiyləgər balaca şeytan!", – dedi. "Sabah mənim qom cabbarımla[3] qarşılaşanda bütün bilik və bacarıqlarına ehtiyac duyacaqsan".

Qoca qadın Paulun anasını bayıra çıxarıb qapını guppultu ilə bağladı.

Paul fikirli halda uzanmışdı. *Qom cabbar nədir?*

Bu qoca qadın dəyişikliyin bu məyusedici çağında gördüyü ən qəribə şey idi.

*Möhtərəm.*

Anası Cessikaya bir xadiməçi kimi müraciət etməyi də qəribə idi, halbuki o, bir Bene Qesserit xanımı, Hersoqun cariyəsi və onun varisinin anası idi.

*Görəsən, qom cabbar getmədən öncə Arrakislə bağlı öyrənməli olduğum bir şeydir?*

---

[1] Doqquz simli musiqi aləti. İmperiya trubadurlarının sevimli alətidir.

[2] Bene Qesseritin istifadə etdiyi termin. "Yolun qısaldılmağı" kimi tərcümə olunan bu ifadə genetik həll axtardıqları naməluma verilən ad; üzvi mental gücləri ilə zaman və məkan arasında körpü yaradacaq erkək Bene Qesserit.

[3] Əzazil düşmən; Bene Qesserit nəzarətçiləri tərəfindən insanlıq testində istifadə olunan ucunda meta-sianid olan iynə. Əl-Maidə surəsindən götürüldüyü ehtimal olunan bu ifadə, ərəb dilindən tərcümədə "güclü, təkəbbürlü, vəhşi" kimi mənalar verir.

Qadının qəribə sözlərini öz-özünə təkrarladı. *Qom cabbar... Kvisax Haderax.*

Çox şey öyrənmişdi. Arrakis Kaladandan xeyli fərqli yer olduğundan, öyrəndiyi yeni bilgilər ağlında burulğan yaratmışdı. *Arrakis – Dyun – Səhra Planeti...*

Atasının sui-qəsdlər ustadı Zufir Havat belə izah etmişdi: onların əbədi düşmənləri olan Harkonnenlər səksən ildir ki, Arrakisi şəxsi mülkü kimi idarə edirdilər. KOOAM[1] şirkəti adı altıda *melanj*[2] adlanan geriatrik ədva (qocalığa qarşı ədva) hasilatı ilə məşğul olurdular. İndi Harkonnenlər oradan çıxarılaraq Atreydis sülaləsi ilə əvəz olunurdular. Bu da hersoq Letonun bariz qələbəsi idi. Lakin Havatın dediyinə görə, bu qələbə özündə ölümcül təhlükə gizlədirdi, çünki hersoq Leto Landsraadın[3] digər sülalələri arasında ad-san qazanmışdı.

"Ad-san qazanmış şəxs güclülərin qısqanclığına səbəb olur", – Havat demişdi.

*Arrakis – Dyun – Səhra Planeti.*

Paul yuxuya getdi. Yuxuda o, Arrakisdə bir mağarada idi: portativ (kiçik, yığcam) lampaların zəif işığında səssiz-səmirsiz hərəkət edən insanlarla əhatələnmişdi. Kafedrala bənzəyən və təntənəli mərasimi xatırladan mağaranın uzaq küncündən su damcılarının sönük səsi gəlməkdə idi. Paul hələ yuxuda olsa da, oyananda bütün bu hadisələri xatırlayacağını bilirdi. O, həmişə düşünürdü ki, yuxular kəhanətlərdir (gələcəkdə baş verəcək hadisələri bilmək və qeybdən xəbər vermək).

Yuxu qeyb oldu.

Paul oyanıb yatağının istiliyində düşüncələrə qərq oldu. Düşünürdü... düşünürdü. Nə oyunların, nə də yoldaşlarının olmadığı Kaladan qəsrinin bu aləmi bəlkə də ayrılıq kədərinə layiq deyildi. Müəllimi hə-

---

[1] "Kombayn Onnet Ober Advanser Merkantayls"in akronimidir. "Birləşmiş Mütərəqqi Ədalətli Ticarət Şurası" kimi tərcümə olunur.

[2] "Ədvaların ədvası"; geriatrik xüsusiyyətləri olan melanjın az miqdarda istifadəsi asılılıq yaratmır. Yetmiş kiloqram çəkisi olan bir bədənin gün ərzində iki qramdan artıq melanj qəbul etməyi, bu maddəyə aludəçilik yaradır. Muad Dib iddia edirdi ki, bu ədva onun peyğəmbərlik güclərinin əsasını təşkil edir. Gildiya naviqatorları da eyni iddia ilə çıxış edir. İmperiya bazarında melanjın on qramı 620000 solar qiymətləndirilir.

[3] İmperiya dövründə digər sülalələri təmsil edən orqan. Padşah imperatora tabe olub Ali Şura tərəfindən idarə olunurdu.

kim Yue fafrelax[1] adlanan sinfi bölgünün Arrakisdə o qədər də sərt tətbiq olunmadığına eyham vurmuşdu. Bu planetdə fremen adlanan insanlar məskunlaşıb: onları idarə edən hər hansı qaidə və ya bəşər yoxdur və siyahıyaalınmada iştirak etmirlər.

*Arrakis – Dyun – Səhra Planeti.*

Paul özünü gərgin hiss etdiyindən anasının ona öyrətdiyi ağıl-bədən məşqlərini icra etməyə qərar verdi. Üç dəfə tez nəfəs almaq cavabı tezləşdirirdi: şüurun özünə köklənərək onun selinə qapıldı... aortal genişlənmə...[2] Şüurun diqqətsiz mexanizmindən qaçaraq öz iradəsi ilə şüurlu olmağa can atır... Bədənin bütün hissələri qanla dolur... *insan, yalnız instinktlə qida, təhlükəsizlik, azadlıq əldə edə bilməz*... Heyvani şüur nə mütləq andan irəli, nə də qurbanlarının nəslinin tükənməyi fikrinə çata bilməz... Heyvanlar, məhv edir, yaratmır... Heyvani həzlər hissiyyata yaxın olub idrakdan uzaq olurlar... İnsan öz aləmini görmək üçün koordinasiyalı sistemə ehtiyac duyur... Öz iradəsi ilə şüurunu cəmləmək, həmin koordinasiyalı sistemi yaradır... Bədənin bütövlüyü, hüceyrələrin ehtiyaclarını dərindən dərk edən sinir-qan axışını izləyir... Bütün hüceyrələr, varlıqlar daxildə daimi axına can atan fanilərdir.

Bu dərs Paulun üzən şüurunda dəfələrlə təkrarlandı.

Dan üzünün sarı işıqları pəncərənin altlığına toxunarkən Paul göz qapaqlarında bunu hiss edərək gözlərini açdı, qəsrdəki təlaş və qaçaqaça qulaq verdi. Arxasıüstə uzanıb yataq otağının tavanındakı tanış naxışlı şalbanlara baxırdı.

Dəhlizin qapısı açıldı. İçəri girən anasının kölgəli gümüşü saçları yuxarıdan qara lentlə bağlanmış, emosiyasız oval üzündəki yaşıl gözləri olduqca ciddi tərzdə baxırdı.

“Oyanmısan”, – dedi. “Yaxşı yata bildinmi?”

“Hə”.

Dolabdakı asılqandan ona paltar seçən anasının boyunu müşahidə edən Paul qadının çiyinlərindəki təzyiqi görə bilirdi. Başqası olsa, bunu görməyə bilərdi, lakin anası onu Bene Qesserit metodu ilə – ən xırda de-

---

[1] Bu sistemin şüarı belə idi: “Hər kəs üçün yer, hər kəsin öz yeri”.

[2] İnsan bədənində ən böyük damardır. Ürəyin sol mədəciyindən bədənin digər orqanlarına oksigenlə zəngin qanı daşıyır.

talları belə müşahidə etmə metodu ilə böyütmüşdü. Anası əlində yarı-rəsmi formalı pencək üzünü çevirdi. Pencəyin döş cibinin üstündə qırmızı rəngli Atreydislərin simvolu olan şahin xaçı var idi.

"Tələsik geyin", – anası dedi. "Möhtərəm Ana[1] gözləyir".

"Onu bir dəfə yuxumda görmüşəm. Kimdir o", – Paul soruşdu.

"O, Bene Qesserit məktəbində mənim müəllimim olub. İndi isə imperatorun həqiqət söyləyənidir. Bir də Paul...", – Cessika tərəddüd etdi. "Ona öz yuxularından danışmalısan".

"Danışacağam. Arrakisi əldə etməyimizin səbəbi odur?"

"Biz Arrakisi *əldə etməmişik*". Cessika əlindəki şalvarın tozunu çırpıb çarpayının yanındakı asılqana pencəklə birlikdə asdı. "Möhtərəm Ananı gözlətmə!"

Paul çarpayıda oturub dizlərini qucaqladı. "Qom cabbar nədir?"

Anasının ona keçdiyi təlimin sayəsində, demək olar ki, görünməz olan tərəddüdü, ona qorxu kimi gələn sinir xəyanətini sezə bilmişdi.

Cessika pəncərəyə sarı gedib pərdələri geniş açdı və Syubi dağı yaxınlığındakı çaya yaxın əkilmiş meyvə bağlarına tamaşa etdi. "Qom cabbar haqqında... tezliklə öyrənəcəksən", – dedi.

Paul anasının səsindəki qorxunu hiss edib onun haqqında düşünməyə başladı.

Cessika üzünü çevirmədən dedi: "Möhtərəm Ana səhər otağımda gözləyir. Xahiş edirəm: tələsəsən".

Möhtərəm Ana – Qaya Helen Mohiam qobelenli (əllə toxunmuş şəkilli divar xalçası olan) stulda oturub ana və oğulun gəlişini izləyirdi. İki tərəfində də pəncərə var idi: biri çayın cənuba istiqamətlənmiş axışına, digəri Atreydis ailəsinə məxsus yaşıl əkin sahələrinə baxırdı, amma Möhtərəm Ana gözlərini mənzərəyə yox, gələnlərə dikmişdi. Bir qədər hirsli olduğundan həmin səhər öz yaşını hiss edirdi. Bu əhvalına görə kosmik səyahəti günahlandırır, iyrənc Fəza Gildiyası[2] və onun gizli yolları ilə əlaqələndirirdi. Lakin burada şəxsən Bene Qesserit diqqəti ilə yanaşılma-

[1] Bene Qesseritə xas olan nəzarətçi, rəhbər. "Fərasət zəhəri"ni öz bədənində transformasiyaya uğradaraq şüurun üst səviyyəsinə qalxmağa nail olan kəsdir. Bu titulu fremenlər mənimsəyərək eyni bacarığa nail olmuş dini rəhbərlərinə aid etmişlər.

[2] Naviqatorlar Gildiyası və ya sadəcə Gildiya adlanan bu təşkilat, kosmik səyahət və yükdaşımaya nəzarət edir.

lı olan bir tapşırıq var idi – hətta padşah imperatorun həqiqət söyləyəninin[1] belə məsuliyyətdən boyun qaçıra bilməyəcəyi bir tapşırıq.

*Lənətə gəlsin Cessika*! Möhtərəm Ana ürəyində dedi. *Kaş əmrə qulaq asıb bizə qız doğardı!*

Cessika stulun üç addımlığında dayanıb sol əlinin zərif hərəkəti ilə ətəyini dartaraq təzim etdi. Paul da öz növbəsində rəqs müəlliminin ona öyrətdiyi "qarşındakının hansı sosial statusa malik olduğunu bilmədiyin" anlardakı kimi baş əydi.

Paulun salamlamağındakı nüanslar Möhtərəm Ananın gözündən qaçmadı "O, diqqətli oğlandır, Cessika", – dedi.

Cessika əlini Paulun çiynində möhkəmlətdi. Bir ürək döyüntüsü qədər vaxtda ovuclarına qorxu doldu. Sonra o özünü ələ almağa çalışdı. "Məhz belə öyrədilib, Möhtərəm".

*O, nədən qorxur?* Paul düşündü.

Qoca qadın Paulu bir bütün olaraq nəzərdən keçirdi: üzü Cessikanın üzü kimi oval, ancaq sümükləri möhkəm idi. Atasının saçları kimi tünd qara saçları, amma qaşları, adı bilinməyən ana tərəfdən babasının qaşları kimi idi; nazik və təkəbbürlü burnu; hersoqun ölən atasının yaşıl gözləri kimi itibaxışlı gözləri var idi.

*Hə, bir vaxtlar ölərkən belə şücaətin gücünü yüksək qiymətləndirən bir kişi var idi,* Möhtərəm Ana ağlından keçirdi.

"Təlim başqa şeydir", – o dedi – "Tərkib hissə başqa bir şey. Görəcəyik". Qoca qadın Cessikaya sərt şəkildə baxdı. "Tərk et bizi! Dinclik meditasiyası etməyə başla!"

Cessika əlini Paulun çiynindən götürüb dedi: "Möhtərəm, mən...".

"Cessika, bunu etməli olduğumu bilirsən".

Paul başını qaldırıb çaşqın halda anasına baxdı.

Cessika özünü ələ aldı. "Hə... əlbəttə".

Paul yenidən Möhtərəm Anaya baxdı. Nəzakət və anasının bu qoca qadına olan aşkar heyranlığı onda maraq oyatmışdı. Bununla belə, anasından hiss etdiyi qorxuya görə ürəyində qəzəb yaranırdı.

"Paul..." – Cessika dərindən nəfəs aldı, – "...indi girəcəyin yoxlanış... bu, mənim üçün önəmlidir".

---

[1] Padşah imperatorun sərəncamında olan həqiqəti duyub onu bəyan edənlərdir.